

Müəllimim, ustadım, qayğısını və zəhmətini hər an hiss etdiyim Mikayıl Mirzəyə həsr edirəm.1980-1984-cü illər və ondan sonrakı ötən illər. İstəklərimi sözə çevirdikcə fikirləşirəm ki, bunlar bir xatirədir. Xatirə isə yaddaşlarda qalır; ələ gəlmir, dilə gəlmir.

# Səslə-sözün düşüncəsi

Ancaq belə xatirələr getdikcə dildən də uzaqlaşır, daha doğrusu, yadlaşır və itir. Açığını desəm "bəlkə də" indidən sonra xatırlamaq istədiklərimiz heç kimə gərək olmayacaq, ta o vaxta kimi ki...

Sənət haqqında gördüklərim anlamla M.Əliyev adına İncəsənət İnstitutunda (indiki İncəsənət Universitetində) təhsilə başladım. Təbii ki, məni və digərlərini kimlərin dərs deməyi, necə oxumağımız yox, gözəl rollar ifa etmək düşündürürdü. Bizim o vaxtkı düşüncəmizlə, "sənət" yaratmaq istəyi üstünlük əldə eləmişdi və bu həvəslə də İncəsənət İnstitutuna daxil olmaqla mənim və digərlərinin sevincinin həddi-hüdudu yox idi.

Bu sevinc bizi göylərə qaldırırdı. Artıq 1-ci semestrin sonunda və daha sonralar, bizi göylərə qaldıran sevinc yavaş-yavaş enməyə başladı. Bədii, elmi sənət qayğılarımız bizi qoynuna aldı. Bəli, biz, qrupun uşaqları müəllim görmüşdük. Hər sözü anladan, səsin qüdrətini açan, hadisəni araşdıran, görünməyənləri göstərə bilən, psixoloji məqamları açıqlayan, geyimin təsirindən, davranışdan, tamaşaçı ünsiyyətindən, hətta insana fikir-söz-səslə təsir etmədən danışan bir müəllim.

Elə bir müəllim ki, bu qrupun sənət addımlarını düzgün yola nizamladı. Bu, Mikayıl Mirzəyev idi.

Həmin görüşə kimi mən Mikayıl müəllimi ekranda görmüş, radio dalğasından eşitmişdim. Onun qaltanlı səsi, şeir deməyi və möhkəm yaddaşı hamını heyrətdə qoymuşdu. O tez-tez şairlərlə keçirilən görüşlərdə, tədbirlərdə çıxış edir, şeirləri, poemaları əzbərdən, səlis, məharətlə söyləyirdi.

Tamaşaçıları özünə bənd eləməkdə mahir idi. Psixoloji təsir göstərərək onları ələ alır, söylədiyi hadisənin içində yaşadırdı. Söyləyim ki, şairlərin xalq içərisində geniş tanınmasında şair sözündən əlavə Mikayıl qiraəti əvəzsiz idi. Elə bir şair yox idi ki, Mikayıl müəllim şeirlərini söyləməsin, səhnədən, efirdən səsləndirməsin.

Səhnədən eşitdiyim səsi indi lap yaxından duydum. Elə o vaxtı da və sonralar da müşahidələrim əsasında deyə bilərəm ki, əksər müəllimlər ilk dərs gününü tanışlığa, boş mühazirələrə yer ayırırlar. Elə birinci dərsdən Nəfəs və Səs haqqında ətraflı anlayışım oldu. Müəllimin dərsə bu qaydada başlaması tələbə üçün olduqca əhəmiyyətlidir.

Mən öz müəllimlik fəaliyyətimdə də bu cür dərs başlanğıcının uğuruna bir daha əmin oldum. Elə o gündən Mikayıl müəllimin dərsini həsrətlə gözləyirdim. Hər bir müəllimin əməyi, zəhməti böyükdür, ancaq nəticədə tələbə müəllimindən nə isə götürməyini hiss eləmədisə, demək o şəxs müəllimlik eləməyib: Sadəcə kitabda yazılanları izah edərək müəllimlik vəzifəsini icra edibdir.

Mən "Mikayıl dərsini" tələbəlik illərində, elə indi də sənətimdə hiss eləyirəm. O mənə elə bir mənbə veribdir ki, bu mənbədən indiyə kimi sənətimdə bəhrələnirəm. İfa tərzi, söz deyimləri, obraz yaratmaq, təsəvvürdən bəhrələnmək və sairə. Ən başlıcası, Azərbaycan dilidir-Azərbaycan dilində danışmağı bacarmaq-Azərbaycan dilində sənət yaratmaq, Azərbaycan dilinin zənginliyini və gözəlliyini çatdıra bilmək. Zəmanəmizdə əksər insanlar belə hesab edirlər ki, dilimizdən düzgün, həm də yetərincə istifadə edirlər. Əfsus, adi halda hər kəsin hər dəfə işlətdikləri yeknəsək sözlərdən istifadə edirlər. Çox zaman hadisənin sözlə dəqiqliyinə varmırlar. İfadəsini elə səsləndirirlər ki, dinləmək yox, heç qulaq asmaq istəmirsən.

Hər bir fikrin söylənilməsində, ən adi sayılacaqlar belə məna kəsb eləməlidir. Fikrini dəqiqliklə çatdırmaq istəyirsənsə, sözləri yerli-yataqlı işlətməlisən. O ki, qaldı ifadəsinə... bax burda fikir və düşüncə gərəkdir.

O mətn ki, düşüncəsiz söylənilirdi, Mikayıl müəllim onu qəbul eləmirdi. O mətndə ki fikir açılmırdı, Mikayıl müəllim özü açıb tökürdü fikirləri... O hər bir işə və sözə məna və dəyər verməyi bacarırdı. Ancaq bütün bunlar ona can bahasına başa gəlirdi. Anlatmaq, göstərmək, istədiyini almaq, eşitmək, hər bir sözün düzgün səsləndirilməsinə diqqət yetirmək -həddən ziyadə zəhmət sərf edirdi tələbələrinə.

Artıq I kursda oxuyurdum. Səhnə danışığı fənnində keçid eləyirdik şifahi xalq ədəbiyyatından yazılı ədəbiyyata. Mətn üzərində işdən savayı şeir üzərində də işə başlamışdıq. Məni durğuzub şeiri oxumağımı söylədi. Mən dedim ki, şeirdən o qədər xoşum gəlmir. Üzümdə şeir söyləmək istəmədiyimi bürüzə verirdim. Mən özüm şeir də yazırdım, şeirlər də oxumuşdum, ancaq nəsrə daha çox üstünlük verirdim. Romantik duyğular, qəhrəmanlıq hissiyyatı mənə hakim kəsilmişdir.

Bir də bir az sıxılırdım, o üzdən etiraz eləmək istədim. Nəinki məcbur eləmədi, heç təkid də göstərmədi, sanki mənim bu iradımla razılaşdı. Əslində belə deyildi və fikirləşdiyim kimi də olmadı. Həmin anda belə dedi: -Şeir də nəğmədir. Onu oxumaq, söyləmək məharət tələb edir. Şeirin gözəlliyi onun içindədir, o gözəlliyi görməsən, duymasan şeir söyləmək mümkün deyil və başladı hansısa şairin şeirini söyləməyə. İnanın, şeiri bitirənə kimi tələbələri oturduğu yerdə dondurmuşdu. Bizim heç səmirimiz də çıxmadı. Bu ilk təəssürat deyildi, şeiri bitirəndə mənə elə gəldi ki, göydən yerə endim. Bir də onda ayıldım ki, mənə müraciətlə - "Sənin səsində çox gözəl alınacaq, hələ sənə qibtə də eləyəcəklər".

Həmin dərsdən etibarən asta-asta-müəllim məharəti ilə mənimlə məşqlər eləyərək şeirin nə və necə olduğunu da anlatdı, söyləməyi də. Onun əməyi oldu ki, Məmməd Araz, Bəxtiyar Vahabzadə və digər şairlərin tədbirlərində tələbə ikən mən iştirak eləyib sanballı çıxışlar etdim.

O, hər tələbəsinə qarşı belə idi, heç kəsi unutmurdu. Hər kəsə öz qabiliyyəti müqabilində seçim edir, edə biləcəyindən artıq tələb edirdi. Belə olmasaydı heç nə öyrənmək mümkün olmazdı. Bir haşiyə çıxım: Yazımı yazdığım ərəfədə qızım Nizami Gəncəvinin "Yeddi gözəl" və "Sirlər xəzinəsi" əsərləri ilə maraqlanırdı. Soruşdum ki, bəs niyə belə təlaş keçirirsən? Cavab verdi ki, müəllimə tapşırıq veribdir ki, oxuyub fərqini söyləyək.

Dedim ki, bəli, oxumaq lazımdır! Söylədi ki,-vaxt var? Sabah soruşacaq. Mən də cavab vermək istəyirəm. Köməkli bəzi fikirləri söylədim, anlatdım, bir az şərhdən öyrəndi, kitabları da verdim, dedim oxu. Söylədi ki, -hara?, kitabda var, onu əzbərləməliyəm. Baxdım dərsliyə (müntəxəbata) o üz, bu üz 8 vərəq. Soruşdum ki, -bəs müəllimə izah eləyibmi? Dedi ki, ancaq oxuyub əzbərləməliyəm! Öz-özümə, fikrən- hə, boş-boşuna əzbərləməyin əhəmiyyəti nə? Axı kitaba hansısa mətn parçasını daxil edib sonra da 3-4 vərəqi əzbərlətməklə şagird nə anlasın? Sual doğur kimin üçün əzbərləyir? Müəllim üçün.

Öyrədilənlər şagird, tələbə üçün dərrakə mənbəyi olmayacaqsa, ancaq məlumat bəzəyi olacaqsa, şagirdə, tələbəyə özünün də maraq göstərib öyrənməyə həvəs yeri olamayacaqsa nə yaratmaq istəyirik və kimin üçün? Mən fəxr eləyirəm ki, indikilərdən çox fərqli olaraq mənim müəllimlərim yaratmaq istəyiblər, yaradıblar da və bizlərə də yaratmağı öyrədiblər. Kim nə dərəcədə öyrəndi, öyrəndi. Erkən vaxtdan uşağa düzgün savadlanmaq (bura çox amillər daxildir) tərzini öyrədəndə, o böyüdükcə qabiliyyətindən dərrakə ilə istifadə edə biləcək, öz sahəsində əməyi olacaq! Əzbərlətdirirlər ona görə yox ki, mənim işim getsin (o dövrdə də belə müəllimlər var idi), ona görə ki, insan bir mətni əzbərləyəndə düşüncəsi şaxələnir, çox əhatəli düşünməyə başlayır. Mikayıl müəllim hər hansı bir mətni əzbərləməyə qoymazdı. Mətni oxuya-oxuya, anlaya-anlaya özü yadda qalmalıdır. Düzdür, məktəb dərsi ilə sənət dərsi arasında fərq böyükdür, ancaq öyrətmək münasibəti eynidir. Uşaq vəzni bilməmiş, oxunuş tərzini təyin eləməmiş, ifadəsini bilməmiş nə cür əzbərləyəcək?! Bütün bunlar hər bir uşağın danışığına təsir eləyəcək zərrələrdir.

Danışıq isə ağzı açıb-yummaq deyil. Sənətdə öyrədilənlərdən fərqli olaraq hər uşağın səviyyəsinə görə "danışıq" və hər uşağın qabiliyyətinə görə "danışıq" tələb eləmək gərəkdir, çünki danışıq insanın yaranışını təcəssüm etdirir. İnsanın həmişə ruhu danışır. Mikayıl müəllim bunları bizə təlqin eləyirdi. Təəssüf ki, zamandan-zamana şagird ikən dərs prosesində bütün bunlar uşaqlara aşılanmır.

"Get evdə üzünə bax, əzbərlə, gəl cavab ver" deməklə gözəl nitqə nail olmaq olmaz. İnsan kamilliyə doğru irəliləməlidir, müəllim isə bu yolda ona həm dayaq, həm də çıraqban olmalıdır. Bütün təhsil boyu Mikayıl müəllim qoymayırdı ki, seçilən mətnlər eyni mövzulu olsun.

Hər semestrdə mətnlər dəyişdirilir, söylənilmə dəqiqəsi artırılır və qəlizləşirdi. Onun sənətkar səriştəsi ilə hər cizginin üzərində işləməsi sayəsində sirli söz dünyasının incəliklərini qavrayırdım. Bir söz dünyanı oyatmalıdır, bir dünya söz bir fikirdə cəmləşməlidir. Mikayıl Mirzə sənətin uca həddinə çatmağın cığırını açırdı tələbələri üçün. Yuxarı kurslarda tez-tez deyərdi:- köhnə mətnləri təkrarlayın, unutmayın. Niyə? Ona görə ki, dilimizə və danışığa aid nə varsa həmin mətnlər üzərində iş zamanı öyrənmişik. İfadə, deyiliş, fasilə oynaqlığı, vəzn, ölçü, sözün musiqiliyi-ahəngi, səs tonları və sairə və sairə. Mətnləri seçmək bacarığı işin ən böyük uğurudur.

Deyərdi ki, elə mətnlər seçin ki, hadisə olsun, həm də zamanla səsləşsin, bəşəriyyəti, insan aləmini düşündürəcək mövzular olsun. III kursa kimi əcnəbi şair və nasirlərin yaradıcılığına müraciət eləməyə qoymazdı. Bu onun üçündür ki, ruhumuzu tutaq, Azərbaycan dilimizin sərvətini üzə çıxarmağı öyrənək, müxtəlif yazarların yazdığını oxumaqla özümüzü tanıyaq, zənginliyimizi itirməyək. Əgər instituta qədər mən maraq üçün oxuyurdumsa, həmin illərdə oxuduqlarımın dairəsi genişləndi, bildiklərim artdı, qat-qat artdı.

Müəllim, aktyor, bədii qiraətçi, sənətkar və ustad! O, yaratmağı xoşlayırdı. Sənətdə yaratmaq hər kəsə nəsib olmaz. Bunun üçün ruhunda yaradandan qüvvə olmalıdır. O axtarırdı, tapırdı. İlk baxışda adi və sadə görünən onun söyləməsində, onun dilində elə mənalı eşidilirdi ki, yazanın özü belə çaşqın qalırdı-məgər bunu mənmi yazmışam?

"Quzu" adlı bir hekayəm vardı. Gətirdiyim digər, mənim əla bildiyim mətnlərin içərisindən ürəyimə yatmayan bir mətni təsdiqlədi. Üzümdəki narazılığı sezdi. Dedim ki, mən sanballı mətn istəyirəm. Söylədi ki: "Sən onu qəşəng söyləyəcəksən. Sən bilmirsən onun içində nələr var". Mikayıl müəllim dediyində israr etdi. Çar-naçar razı oldum. O kimə nə verdiyini və nəyə qabil olduğunu gözəl bilirdi. Bu səbəbdən ona etiraz eləmək yanlış olardı. Mikayıl müəllim tələbənin nəyə qadir olduğunu təyin edərdi və bu onun müəllimlik fəaliyyətində əsası təşkil edirdi. Mənim içimdə qaynayan çılğınlıqdan törəyərək dağı dağ üstə qoymaq istəyi gözümüzə cılız görünənlərə qarşı etiraz yaradırdı.

Əslində cılız sandığımız mətnlərin içində görmədiyimiz dağları yaratdı o mənimlə, həmçinin qrupun digər uşaqları ilə də. Başladım mətn üzərində işləməyə. Belə də oxudum, elə də oxudum. Mövzu belə idi; İsti yay günlərinin birində yol yolçusu dincini almaq üçün tanımadığı bir evə üz tutur və o evin qonağı olur.

Ev sahibinin də davarları var (qoyun-quzusu). Yolçu qonağın davardan xoşu gəlir. Amma aralarında bir qoyun var balası ilə, o daha da gözəl idi. Qonağın gözü düşür ona. Ev sahibi həmin buxara qoyunu quzusu ilə birgə bağışlayır qonağa. Səhərisi gün yolçu qonaq buxara qoyunu kəsir, dərisini isə asır qurumağa. Ev sahibi bunu görüb çox məyus olur. Qoyunun balası isə mələyə-mələyə gəzir. Sən demə bu qonaq tacir imiş, hələ bir tərifləyirdi də, nə dəri geyim çıxar bu buxara dərisindən. Sonra yazıçı bu səhnənin davamını öz dilində təsvir edir. Bu mənə həddən ziyadə sadə deyə biləcəyim qədər bəsit görünürdü.

Məşqlərin birində öz işlədiyim tərzdə mətni söyləyəndə yarımçıq saxlayıb: "Yox! Sən ana xəttini düzgün tutmayıbsan. Sən dediyin kimi deyil". Başladı anlatmağa. Dinlədikcə Mikayıl müəllim təsəvvürümdə bir canlanma yaratdı. Tanımadığım bir dünyanın qapıları taybatay açıldı üzümə. Bildiklərim, gördüklərim Mikayıl dilində mənə izah olunanda, özümə bəlli oldu ki, heç nə bilmirəm. Sözün altındakını görmək gərəkdir. Söz lütdür, onu geyindirmək gərəkdir. Hekayə gözümdə dönüb oldu həyatın şirin parçası. Mənə elə gəldi ki, bu mətndə gizlin qalıb bəşəriyyətin sağlamlığına xələl gətirən amilləri gördüm və onların həllini tapdım. Bu cür izahdan sonra mən sözün və fikirlərin köməkliyi ilə mətndə olan hadisə ilə yox, bəşəriyyətin dərdi ilə üzbəüz qaldım və onun ruhunu açmağa cəhd göstərdim. Mən bu mətni işlədim - deyilənə görə də gözəl söyləmişəm.

Çox rastımıza gəlibdir ki, sənət adamlarının bəziləri vaxtı ilə gördüyü işi, yaşa dolandan sonra, yəni kamilləşəndən, el dilində söyləsəm bişəndən sonra deyir ki, indiki vaxtım olsaydı mənim, o vaxt söylədiyimdən daha yaxşı söyləyərdim. Bu cəhətdən mən elədiklərim və öyrəndiklərimin səviyyəsinin lazımi dərəcədə olmasına yanılmıram.

Mikayıl müəllimin zərgər kimi keçilən dərslərini öyrənən hər bir tələbə bilməlidir ki, sözlə dağı dağ da eləmək olar, sözlə dağa dağ da çəkmək olar. Söz içindən söz çıxarmaq asandır. Ancaq söz içindən fikri çıxarıb bəyan eləmək hər kəsin hünəri deyil. Hamı danışır, hamıda da danışıq qaydası eynidir, üslubiyyat düşdüyü vəziyyətə görə dəyişir, danışıq tərzi münasibətə görə. Belə çıxır ki, hamı sənət yarada bilər. Hər kəs hər kəsin eləyə bildiyini eləyə bilirsə niyə onda Allah istedad yaradırdı? Danışıqda ilahiyyat olmalıdır. Yaratmaq istəyənin digərlərindən fərqi budur. El içində deyərdilər: "Bax, o danışanda ağzından dürr tökülür, bəs sən nə üyüdürsən?" Səlis, rəvan, ahənglə, sözləri öldürmədən ifadəli səslə danışmaq üçün savad da vacibdir. Mikayıl müəllim hər gün bizə yeni çıxan ədəbiyyatlardan məlumat verirdi. İstər şair, istərsə də nasir.

Şifahi xalq ədəbiyyatımızın vurğunu idi. Öz qrupunu bayatılar, tapmacalar, sanamalar, dastanlar, el ədəbiyyatı üstündə məşq elətdirib yetişdirmişdi. Amma indi əksər uşaqlar sadaladıqlarımın ancaq adlarını bilirlər. Dilə xələl gətirəcək yersiz sözlərdən qəti xoşlanmazdı. O sözlərdən elə bir gül dəstəsi düzəldib təqdim eləyirdi ki, hər kəs söz rayihədarından feyz alırdı.

Bədii-qiraəti ilə, müəllimliyi ilə Azərbaycan dilinin gözəlliyini, danışığını, qayda-qanununu qoruyurdu. Danışığın elə cəhətləri var ki, o yazıya gəlmir, ancaq səslə yaşayır, səslərin sözlə qovuşmasından doğur.

Mikayıl Mirzə sənətində bütün bu cəhətlər özünün dolğunluğunu tapmışdı. Mən indi daha cox hiss eləyirəm ki, Mikayıl müəllimdən öyrəndiklərim heç bir kitab, yazı ilə ələ gəlmir. Onun ifasında kiçik bir fasilə həyat damlası qədər canlandırıcı idi. Özü həmişə deyərdi: "Fasiləni yaşamaq lazımdır. Fasilə hansısa fikir, hadisədən yaranır. O tək cümlələrarası fərq üçün deyil".

Fasilə ilə yazılmayanları açıb söyləyirsən. Cır, bayağı danışıqdan uzaq olmağımızı tövsiyə edərdi. Görəsən, indi pəltək vura-vura, söz ifadələrinin axarlığını poza-poza, hələ üstəlik sözlərin vurğusuna, ifadəsinə fərq qoymayaraq ağzını açıb yummağı danışmaq sayanlar o dərslərdən bəhrələnsəydilər, öz qabiliyyətlərinə müvafiq olaraq və bildiklərinə rəğmən indi yaratdıqlarını "sənət" adlandırardılarmı? Amma bir məsələ var: sənətin kölgəsinə gəlmək ayrı, sənətdə kölgə qoymaq ayrı.

Sənətkarına uyğun tamaşaçısı olur, tamaşaçısını isə sənətkar istiqamətləndirir. Mikayıl müəllim tamaşaçı ilə ünsiyyətə çox diqqət yetirirdi. Tamaşaçının zövqündən asılı olmayaraq o hamını səhnədə baş verənlərə tabe edirdi. Yadımdadır, 1983-cü ildə "Aktyorlar evinin" binasında onun yaradıcılıq gecəsi oldu. Dörd saat davamlı olaraq şairlərin poema və şeirlərini məharətlə söyləyərək hamını heyran eləmişdi. Belə tədbirin öhdəsindən gəlmək

üçün nəfəs lazımdır, səs lazımdır.

Mikayıl müəllimin nəfəs və səsdən öz istifadə qaydaları vardı və inanmıram ki, bundan sonra bir kimsə öz bədənində nəfəsdən istifadə qaydalarına bu qaydaları bilən müəllimsiz yiyələnə bilsin. Cümlənin bir əvvəlində, bir ortasında, bir də axırında nəfəs almaqla tamaşaçı və ya dinləyicini gözəl sənət əsəri adı altında cəlb etmək olmaz.

Düzgün nəfəs alma və nəfəsdən istifadə, söyləyəcəyin və oxuduğun mətnin rahat, istədiyin kimi çatdırılmasıdır, əks halda hamının fikri söyləyəndə qalacaq, söyləyəcəyində yox. Bir də deyim ki, Mikayıl müəllim hansısa bir söz artıq işlətməyə qoymazdı. Fikrə (hadisəyə) xələl gətirəcək sözü yaxın qoymazdı. Bir də gördün mətndə bütöv bir abzası yox elədi, cəmi bir cümlə saxladı. Həmin o cümləni hissiyyatınla, düşüncə ilə, münasibətinlə, hadisəni duyub yaşaya biləcəyin yanğılarınla doldurmalısan. Bax, bu yollarla danışığın yazıya gəlməyəcək sirlərini öyrədirdi.

Yazının söz qayda-qanunu, danışığın dil və səs qayda-qanunu. Mətndə hansısa bir yazını maraq istəyindən oxuyursan. Ancaq danışıqda əksər hallarda bu, özünü doğrultmur. Ya uzun çıxır, ya adamı yorur, ya da danışıqda mətnə xələl gətirir. Mətndə montaj ən incə və duyğulu iş sayılır.

Bəzən mətnin özündə bir hissəni, yaxud parçanı çıxaranda fikirləşirdim ki, bu mətnin ən gözəl yeridir, niyə ixtisar edir. Sonralar anladım ki, dinləyici üçün düşünməyə yer ayırmaq lazımdır. Yəni hadisə arasında baş vermişləri gərək təsəvvüründə canlandırasan ki, mətnin ruhu ilə yaşaya biləsən. Ancaq Mikayıl müəllim bu barədə belə deyirdi:- müəllifin yazdıqlarına hörmətlə yanaşmaq lazımdır, çünki düzgün ixtisar olunmayan bir cümlə mətnin ruhunu başqa məcraya yönəldər.

Bu işdə ehtiyatlı olmaq gərəkdir. Sənətkar və ustad olmaq- bu, insanların düşünərək yaratmaq istədikləri bir vəzifə növü deyil. Bu, Allahın yer üzünə və insan aləminə verdiyi özünün bir parçası - töhfəsidir. Bu töhfəni "mən sənətkaram" deyən hər yetənə verməyibdir. Dünya içində aləm yaradanda və bu aləmi insanlara paylayanda sənətkara çevrilirsən. Sənət sənət olaraq öz qüdrətində qalır. Kimlər ki, "sənət+sənətkar" səviyyəsinə qalxır, onlar zamanla üzbəüz gələcəklər. Ona görə kimsə deməsin ki, mən sənət yaratmışam, yaxud yaradıram. Yaradanı zaman özü yadda saxlayır.

Mikayıl müəllimi öz zamanı yaratmışdır. Mikayıl müəllimin sənət aləmindən çoxları bəhrələnib. O özünün savadını, zəhmətini, bildiyini, əziyyətini tələbələri üçün, sevgisini, sənətini isə zamanla üzbəüz gələrək Vətən üçün qoyub getdi. İnstitut illəri artıq arxada qalmışdı.

Mən öz sənət fəaliyyətimdə onun dediklərini yada salır, məsləhətlərini xatırlayır, müəllimlik fəaliyyətimdə onun da dərs üslubiyyatından istifadə edirdim. Hər bir mətnin üzərində iş apararkən onun vaxtı ilə öyrətdiklərini əsas tutmuşam və deyim ki, indiyə kimi dəyərini itirməyən üslubiyyatlarla dilimizin xüsusiyyətlərini necə gözəl bilirdi. Səslə sözün uzlaşmasında ifadələrin tələb olunan vəziyyətdə rəngarəng istifadəsi - Mikayıl Mirzə yaradıcılığına xasdır. Mikayıl Mirzə öyrətməyi bacarırdı. Öyrədəndə kök atdırırdı. Müvəqqəti sənət fəndlərindən yan qaçırdı. Deyirdi ki, " Mənim kimi demək lazım deyil. Mən səni o səmtə yönəldirəm, özün duyduğun kimi söylə. Öz səsində, öz dilində tamaşaçı ya dinləyici ilə ünsiyyət qurmağı bacar, bayağı danışıqdan uzaq qaç. Təbii danışmaq o demək deyil ki, sözləri elə-belə, necə gəldi söyləyəsən. Yaxud da incə səslə sözləri bəzəyə-bəzəyə deyirsən ki, mən danışıram, kimlərəsə xoş gəlim. Xeyr! Sözü heç vaxt boş söyləmə. O gedib sahibini tapmalıdır!" və məşq zamanı oturub diqqətlə söyləyəcəyim mətnə qulaq asardı. Məsləhət verərdi ki, vaxtı udmağı bacarın, vaxtı tuta bildinsə sən qazandın.

***"An əjdahadır, illəri udur"-bu sözlər Mikayıl müəllimə məxsusdur. Bəli, anlar çox illəri uddu. İllər isə sürətlə gedərək çox sirləri özündə gizlədir. Ona bircə an bəs edərdi ki, bəşəriyyətin üzünü səhnəyə döndərsin. O bir anın içərisində çox illəri qaytara bilərdi, səsi ilə, sözü ilə, sənəti ilə. Zamanı sözə çevirərək özünü söz ilə zamanda həkk elədi - Mikayıl Mirzə!***

● **Bəxtiyar ŞƏRİFZADƏ**